# Bakıda «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusunda Dünya İqtisadi Forumu (Davos Forumu) keçirilmişdir






Aprelin 8-də Bakıda «Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq» mövzusunda Dünya İqtisadi Forumu (Davos Forumu) işə başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun açılışında və «Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının gələcəyinə baxışlar» mövzusunda keçirilən birinci sessiyasında iştirak etmişlər.

Dünyanın diqqəti növbəti dəfə Azərbaycana yönəlmişdir. Son illərdə beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Bakı Dünya İqtisadi Forumunun iştirakçılarını qəbul etmişdir. Dünyanın iqtisadi vəziyyətini proqnozlaşdıran tanınmış iqtisadçılar, ekspertlər, dövlət və hökumət nümayəndələri bir araya gələrək, bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə etmək üçün mərkəz kimi məhz Bakını seçmişlər.

Dünya İqtisadi Forumunun Bakıda keçirilməsi barədə ümumi razılıq yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunun təsisçisi və icraçı sədri Klaus Şvab ilə görüşündə əldə edilmişdir.

Forumda Azərbaycan Prezidenti İlham Əliyev geniş çıxış etmişdir

**Miri RƏHİMOV.**

*Səyyar qəbullar*

# Nohurqışlaq kəndində görüş-qəbul keçirilmişdir

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması məsələləri rayon icra hakimiyyətində gündəlik məsələlərdən birinə çevrilib. Rayon icra hakimiyyətinin başçısı və onun müavinləri bu məsələni daim diqqət mərkəzində saxladığına görə həm icra hakimiyyətində, həm də vətəndaşların məskunlaşdığı ayrı-ayrı yaşayış məntəqələrində qrafik üzrə nəzərdə tutulan günlərdə səyyar qəbullar keçirilir. Səyyar qəbullarda aşkar edilən problemlər dərindən təhlil edilərək müvafiq tədbirlər planı hazırlanır, narahatlıq doğuran məsələlərin böyük əksəriyyəti müsbət həll olunur. Bəzi müraciətlərlə bağlı müvafiq izahatlar verilir. həlli rayon icra hakimiyyətinin səlahiyyətləri xaricində olan problemlərlə bağlı aidiyyatı orqanlar qarşısında məsələ qaldırılır.

Təbii ki, səyyar qəbulların bu formada keçirilməsi vətəndaşların razılığına səbəb olur, onlar öz dərd-sərlərini birbaşa rayon rəhbərinə çatdıra bilirlər. Son illərdə ənənə halına çevrilmiş belə tədbirlərdən biri bu dəfə aprel ayının 9-da Nohurqışlaq kəndində keçirilmişdi.

RİH-nin başçısı cənab Səbuhi Abdullayevin iştirak etdiyi görüşdə təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin, xidmət təşkilatlarının rəhbərləri, kənd sakinləri, yerli icra və bələdiyyə orqanlarının rəhbərləri, habelə təhsil, səhiyyə strukturlarının nümayəndələri iştirak etmişlər.

Tədbiri açan Nohurqışlaq kəndi üzrə icra nümayəndəsi Babək Məsimov məlumat verərək bildirdi ki, burada 759 fərdi təsərrüfatda 3188 nəfər əhali yaşayır. Kənd sakinlərinin əsas məşğuliyyəti bitkiçilik, heyvandarlıq və meyvəçilikdir. Onlar bu məhsulların istehsalının artırılmasına daha çox üstünlük verirlər. Kənd sakinlərinin bəziləri Qəbələ şəhərində, rayonun digər ərazilərindəki tikinti meydançalarında və emal müəssisələrində çalışırlar. Kənddə demək olar ki, işsizlik minimumdan aşağı səviyyəyə endirilmişdir.

Görüşdə kəndin ümumi vəziyyətinə, xidmət təşkilatlarının işinə və həlli prioritet olan məsələlərə daha çox diqqət yetirildi. İcra nümayəndəsi bildirdi ki, kəndin sosial problemləri həll olunur. O qeyd etdi ki, yeni yaradılmış yaşayış məhəllələri müstəsna olmaqla su, işıq təchizatı yaxşılaşdırılmış, yollar təmir edilmiş, kəndə təbii qaz kəmərlərinin çəkilişi başa çatdırılmışdır. Bu günlərdə təbii qaz xəttinin çəkilməsinin təntənəli açılışı mərasimi də nəzərdə tutulmuşdur. Kənd əhalisinə müxtəlif xidmətlər, o cümlədən mədəni-maarif, tibb, rabitə, ticarət və iaşə xidmətləri göstərilir.





Səyyar qəbulda iştirak edən rayonun idarə və müəssisə rəhbərlərindən mərkəzi xəstəxananın baş həkimi Sabir Bayramov, təhsil şöbəsinin müdiri Oqtay Hacıyev, mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova, əhalinin sosial müdafiəsi mərkəzinin direktoru Arzu Hacıyev, ağsaqqallar şurasının sədri Nazim Mustafayev və başqaları Nohurqışlaq kəndində təşkil olunmuş xidmət işləri barədə əlavə məlumatlar verdilər. Tədbirdə iştirak edən kənd sakinlərindən Məmməd Əhmədov, Təbriz Xəlilov, Neman Cavadov və başqaları yeni salınmış yaşayış massivində elektrik enerjisi təchizatında və içməli su təminatında olan problemlərdən danışdılar.

Rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev əhalinin rifahının yüksəldilməsi, kəndin abadlaşdırılması, kənd əhalisinin güzəranının, onların sosial qayğılarının daha da yaxşılaşdırılması sahəsində görülən işlərdən danışdı. Xüsusilə yolların təmiri və asfaltlaşdırılması, yol kənarlarının daha da abadlaşdırılması, qaz çəkilişinin sürətləndirilməsi zərurətini vurğuladı. Habelə tədbirdə vətəndaşların qaldırdıqları bəzi nöqsanların mövcud olduğunu və bu sahədə rayonun xidmət təşkilatlarının, yerli icra və bələdiyyə orqanlarının vəzifələrini geniş şərh edərək nöqsanların aradan qaldırılması istiqamətində görüləcək işlərdən danışdı. Bununla əlaqədar idarə, müəssisə rəhbərlərinə müvafiq tapşırıqlar verdi.

**Aslan CƏLİLOV,**

**Fotolar**
**Səhrab UMUYEVİNDİR.**